# Son 5 ildə Azərbaycan və İran prezidentləri 12 dəfə görüşüblər



Azərbaycanda səfərdə olan İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-leytenant Məhəmməd Baqerinin rəhbərlik etdiyi nümayəndə heyəti dünən Milli Məclisdə olub.

Parlamentin Sədri Oqtay Əsədovla keçirilən görüşdə qeyd edilib ki, Azərbaycan-İran ikitərəfli münasibətləri son illər ərzində bütün sahələrdə inkişaf edib. Bu səfər isə hərbi sahədəki əlaqələrin daha da genişlənməsinə öz töhfəsini verəcək.

İki ölkə arasında parlamentlərarası əlaqələr üzrə işçi qruplarının da fəal əməkdaşlıq münasibətləri qurduqlarını, beynəlxalq təşkilatlarda bir-birlərini müdafiə etdiklərini söyləyən Oqtay Əsədov bildirib ki, əlaqələrin yüksələn xətlə inkişaf etməsinin səbəbi hər iki ölkənin prezidentlərinin qarşılıqlı səfərləri və apardıqları danışıqlardır. Son 5 ildə dövlət başçıları 12 dəfə görüşüblər. Bu da onu təsdiq edir ki, Azərbaycanla İran arasında siyasi münasibətlər ən yüksək səviyyədədir.

İki ölkə arasındakı iqtisadi münasibətlər də inkişaf etməkdədir. Əgər 2017-ci ildə dövlətlərarası ticarət dövriyyəsi 257 milyon dollar idisə, 2018-ci ildə bu rəqəm 400 milyon dollara yüksəlib. Bu da 40 faiz artım deməkdir. 5 il ərzində qarşılıqlı olaraq 24 biznes forum keçirilib. Ancaq iki ölkə arasında iqtisadi münasibətlərin daha da inkişaf etdirilməsi üçün real imkanlar mövcuddur.

Milli Məclisin Sədri "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşması istiqamətində görülən işlərdən də söz açaraq vurğulayıb ki, bu dəhliz istifadəyə verildikdən sonra Azərbaycan və İran arasındakı iqtisadi münasibətlər daha da inkişaf edəcək.

Azərbaycanla İran arasında möhkəm dostluq bağlarının olduğunu deyən Məhəmməd Baqeri deyib ki, iki ölkə arasındakı əlaqələr gündən-günə inkişaf edir. Çünki bütün istiqamətlərdə qarşılıqlı səfərlər intensivləşib. Bu səfər isə müdafiə sahəsindəki əlaqələrə müsbət təsir edəcək. Hərbi sahədə əməkdaşlığın yeni inkişaf mərhələsində olduğunu söyləyən general-leytenant diqqətə çatdırdı ki, İran Prezidenti Həsən Ruhani iki ölkə və xalqlar arasında əlaqələrin bundan sonra daha çox güclənməsini zəruri hesab edir.

Görüşdə vurğulanıb ki, qarşılıqlı səfərlər, hökumətlərarası komissiyaların qəbul etdikləri qərarlar Azərbaycan-İran münasibətlərini daha möhkəmləndirməyə və bütün sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişafına xidmət edəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*Fərman BAĞIROV (foto),*
*"Azərbaycan"*

**Azərbaycan.- 2019.- 17 yanvar.- S. 4.**